**Tağıyeva Şəhla İbrahim qızı**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
Shehla-bayramova@mail.ru

# MƏŞHUR TEATR BİNALARININ TARİXİNDƏN

***Açar sözlər***: *teatr,memarlıq,milan, tarix, üslublar, binalar*
***Key words:*** *theater, architecture, milan, history, styles*
***Ключевые слова***: *театр, архитектура, милан, история, стили*

Mədəniyyətin əsas və maraqlı sahələrdən biri də teatr sənətidir.Özündə bir çox sahələri birləşdirən teatr,hələ qədim dövrlərdən insanların həyatına nüfuz etmişdir.Onlar müxtəlif ritualları həyata keçirmək üçün səhnəciklər hazırlayırdılar.Deməli,insanın teatra hər zaman ehtiyyacı olmuşdur.Zaman keçdikcə teatra olan maraq artmış və artıq bu cür geniş həcmli səhnələrin təşkili üçün geniş və qapalı məkanlara ehtiyyac duyulmuşdur.Bu işin həyata keçirilməsi əlbəttə ki,bilavasitə memarlığın üzərinə düşürdü.Teatrın baş tutması üçün əlverişli memarlıq quruluşunun işlənib hazırlanması ilə memarlar məşğul olmuşlar.Bu gün dünyada saymaqla bitməyəcək qədər teatr binaları mövcuddur.Bu, qədim teatrlardan tutmuş, müasir tikililərə qədər ola bilər.Ancaq, aralarında elə teatr binaları var ki, məhz teatr binası deyərkən ağıla ilk həmin şedevrlər gəlir.Bu məqalədə də elə həmin teatr binalarından,yaranma tarixindən,memarlıq üslubundan yazacam.

Belə teatr binalarından ilk öncə ”La Skala” nın adını çəkmək olar.(Şəkil 1.) "Operanın məbədi" adlandırılan La Skala teatrının açılışı 1778-ci ildə avqustun 3-ü Milan şəhərində baş tutmuşdur.Bütün dünya elitası ora getməyə can atırdı.

1776-cı ilə qədər milanlıların əsas teatrı “Redjo Dukale” teatrı idi .O,təxminən Palazzo Reale Kral sarayının yerləşdiyi ərazidə tikilmişdi.Bu teatr yanğın zamanı dağıdıldığına görə, imperatriça Mariya-Tereziya Avstriyskaya yeni opera teatrının tikilməsini sifariş verdi.Yeni teatr binası qədim Santa- Mariya – della- Skala kilsəsinin yerində balaca bir meydançada ucaldıldı və öz adını da buradan aldı.La Skala teatrının layihəsi istedadlı memar Cüzeppe Pyermariniyə məxsusdur.Vaxtilə yanıb külə dönmüş “Kedjo Dukale”teatrının yerində 90 icarəçinin dəstəyi ilə o öz proyektini həyata keçirdi.Bu dövrdə teatrın qarşısında meydan ( hal- hazırda Pyatssadella Skala) yox idi.Ətrafdakı ərazinin köhnə binalarla dolu olduğunu nəzərə alaraq, Pyermarini fayton və piyadalar üçün yol ayırmaq məqsədilə tağşəkilli portik (binaya yapışıq sütunlu eyvan) yaratdı.Bu nəhəng tikinti 1776 – cı ilin ortalarında başlamış və artıq 1778-ci ilin 3 avqustunda açılış mərasimi Antonio Salyerinin “Tanınmış Avropa” operası ilə başlandı.

Teatr ciddi neoklassik üslubda tikilmiş və dünyanın ən gözəl tikililərindən biri sayılır.Onun heyranedici akustikası əsrin əfsanəsi sayılırdı.Zal nal şəklində tikilmiş, sənət dekorasiyaları isti-qızılı rənglərdə yaradılmışdı.Zalda 5 mərtəbəli loja və qalereyalar var.

Mari-Anri Beyl Stendal La Skala teatrını göründə öz heyrətini saxlaya bilməmişdi.Stendal yazmışdı: “Bu, dünyanın musiqi həzzini yaşadan ən gözəl teatrıdı.Bundan daha artıq möhtəşəm və təntənə təsəvvür etmək mümkün deyil”

La Skala teatrı XVIII-XIX əsrlərin “opera dövrü”nün mərkəzi idi.Onun repertuarında Cüzeppe Verdi,Cakomo Puççini, Qaetano Donisetti və Bethoven kimi dahilərin əsərləri vardı.

1943-cü il II Dünya müharibəsi zamanı Milandakı bu teatr dağıntıya məruz qaldı.Lakin, teatrın aktyor truppası məşqlərinə davam edir və digər teatrlarda tamaşalar verirdilər.1945-ci ildə İtaliyanın azad edilməsindən sonra,Arturo Toskanini Milanın hakim dairələrinə La Skala teatrının bərpası üçün pul vəsaiti göndərdi.L.Sekkinin başçılığı ilə teatr ilk görkəmində bərpa olundu və 1946-cı ildə təntənəli açılışı baş tutdu.

Bu böyük musiqi məbədgahı bu gün də inkişaf etməkdədir.2002-2004-cü illər ərzində teatrda köklü şəkildə bərpa işləri görülmüşdür.Restavrasiya nəticəsində teatr yeni akustik döşəmə ilə təmin olunmuş,divarlardakı rəsmlər və qızıl bəzəklər də bərpa edilmışdır.Bu zaman memar Mario Bottanin futuristik bərpa layihəsi böyük əks sədaya səbəb oldu.Botta teatr planına iki böyük qüllə əlavə etdi ki,bu da binanın orijinal hissəsini qismən dəyişdi.Teatrın əsas səhnəsi bir qədər artırıldı,zalda yerlərin sayı azaldıldı və indi burada 2030 tamaşaçı yerləşə bilər.

Bu gün də özlərini teatr həvəskarı saymayan,musiqi tərəfdarı hesab etməyən turistlər, qısa bir səfərdə belə bu teatrı görməyə tələsirlər.Bu yəqin ki, teatrın tarixinə,onun sirrlərinə yaxından bələd olmaq üçündür.

Belə teatrlar binalarından danışarkən,mütləq bu siyahıya Vyana Dövlət Opera binasını əlavə etmək lazımdır.Bu bina Avropanın olduğu qədər,dünyanın da ən dəyərli memarlıq incisi kimi qəbul olunur Vyana Dövlət Opera binası.(Şəkil 2.)

Bildiyimiz kimi Vyana heyranedici bir şəhərdir.Kiçik küçələrin rahatlığı, dəbdəbə və tarix ilə birləşərək,şəhərin hər bir yerinə nüfuz edib.Vyananı musiqisiz təsəvvür etmək çox çətindir.Bu şəhər Avropanın musiqi paytaxtı sayılır.Şəhər əhalisinin fikrincə Vyana Opera binasını ziyarət etməmiş,bu şəhərin abu-havasını hiss etmək mümkün deyil.Binanın tikintisinə 1861-ci ildə başlanılıb və 8 il müddətində davam edib.Tikintiyə Avstriyanın memarlarından Eduard Van Der Null və August Sicard von Sicardsburg,o dövün bir çox məşhur rəssamları öz güclərini sərf etmişdir.

Hələ eskizlərdən binanın gözəlliyi,layihənin miqyası bəlli idi.Bu eskizlərdə sehrli və cəlbedici nə isə var idi.Həm eskizin mükəmməlliyi,həm dekorasiyadan tutmuş,memarlığa qədər bütün elementlərin ciddi şəkildə hazırlanması insanı valeh edir.Ancaq bütün bunlara baxmayaraq,cəmiyyətin bu binanı qəbul etməsi ele də asan başa gəlmədi.Belə ki,bu memarlar yerli sakinlər və imperator Franz Joseph I tərəfindən ciddi tənqid və təhqir olundu.Onları zövqsüzlükdə günahkarlandırdılar.Buna səbəb,binada tualetlərin sahəsinin azaldılması,bundan əlavə binanın girişi gediş-gəlişli küçənin və tramvay yolunun çox yaxın olması,əsas pilləkənin ancaq binanın içərisində olması göstərilmişdir.Bəzi mənbələrdə isə tamamilə fərqi səbəblər: fasadın olduqca ağır olması və səki ilə demək olar ki,eyni səviyyədə tikilməsi,üslubunun isə çox qarışıq olması əsas gətirilmişdir.Eduard Van Der Null bütün bu təhqirlərə dözməyərək,1868-ci ildə özünə qəsd etmişdir.Digər memar August Sicard von Sicardsburg isə hadisədən 10 həftə sonra ürək tutmasından vəfat etmişdir.Olanlardan çox təsirlənən imperator daha sonra sənət əsərlərinin dəyərləndirilməsində olduqca diqqətli olmağa çalışırdı.Bütün narazıçılıqlara baxmayaraq,nəhayət,1869-cu il mayin 25-də V.A.Motsartın “Don Juan” operası ilə binanın açılışı baş tutdu.

İllər sonra binanın möhtəşəmliyi hər kəs tərəfindən dərk olunur və bina dünyanın ən gözəl tikililəri arasında öz yerini tutmağa başlayır. Teatrın binası bu günə qədər də, bu statusunu qoruyub saxlayıb.

Bina neorenessans üslubunda inşa olunub. Fasad Motsartın “Sehirli fleyta” operasından fraqmentlərlə bəzədilib.Burada heykəltəraş Ernst Julius Hahnelin beş möhtəşəm əsəri, beş mifi təsvir edir: gözəllik,fantaziya,komediya,qəhrəmanlıq və sevgi.Bunlarla yanaşı fasad ritmlə düzülmüş arkalar,pilyastr və sütunlarla daha da zənginləşdirilmişdir.Vyana Opera binası gece işıqlandırılması zamanı xüsusilə möhtəşəm görünür.Binanın interyeri də zənginliyi ilə göz oxşayır.Girişdə qonaqları 2-ci mərtəbəyə çıxaracaq geniş,əsas pilləkən qarşılayır.Tavanların zəngin dekorasiyası və rəsm əsərləri insanı valeh edir.

Vyanada 1938-ci ildən 1945-ci ilə qədər davam edən faşist işğalı zamanı teatr binası ciddi zərər gördü və 1945-ci ildə şəhərə hücumlardan birində bu gözəl sənət əsəri məhv edildi.Müharibə bitdikdən sonra Avstriya hökuməti məşhur binanı bərpa etməyi özünə borc bilərək,bu işi 1955-ci ilə tamamladı.Vyana Opera binasının ikinci həyatı 5 noyabr 1955-ci ildə dahi bəstəkar Betxovenin “Fidelio” operası ilə başladı.

Bu gün Vyana Dövlət Operası dünyanın məşhur opera mərkəzi ,bəlkə də birincisidir.Burada il ərzində opera və baletin təxminən 60 fərqli tamaşası təqdim olunur.Dünyanın aparıcı rejissor və aktyorları böyük məmnuniyyət hissi ilə təcrübəli və tənqidçi Vyana tamaşaçılarına öz bacarıqlarını nümayiş etdirirlər.

Teatr memarlığının incilərindən biri də Paris Opera Teatrı və ya “Grand Opera”dır.Müasir Fransada isə daha çox Opera Qarnye kimi tanınır.

Qrand Opera yalnız opera sənətinin pərəstişkarları üçün maraq kəsb etmir.Qarnye sarayının binasının həm xarici,həm də daxili heykəltəraşlıq,mənzərə,dekorativ sənət pərəstişkarlarına unudulmaz təəssürat bəxş edir.O,eklektik (bir-birinə zidd olan nəzəriyyələrin mexaniki olaraq birləşdirilməsi) memarlığın,teatr texnikası və texnologiya muzeyinin parlaq nümunəsidir.(Şəkil 3.)

Parisdə yeni operanın tikintisi 1868-ci ildə III Napoleona Le Peletye küçəsində yerləşən Opera teatrında edilən sui-qəsddən sonra başlamışdı.Həmin hadisədən sonra imperator o uğursuz yerə getməkdən qəti surətdə imtina etdi,daha yaxşı proyekt üçün konkurs keçirildi.Həmin konkursda o dövrdə tanınmayan memar Şarl Qarnye qələbə qazandı.

Yeni Opera binasının planında imperator üçün ayrıca giriş nəzərdə tutulmuşdur və bu giriş onun həyatına mümkün olan təcavüzlərdən təcrid etməli idi.Təəssüf ki, III Napoleona yeni Opera teatrında öz lojasında əyləşmək qismət olmadı.Buna səbəb Franko-Prusso müharibəsinin başlanması nəticəsində tikinti işlərinin yarımçıq qalması oldu.Tikintinin bərpası yalnız 1871-ci ildə mümkün oldu və 1875-ci ildə artıq inşası başa çatmışdı.Uzun illər teatr Paris Operası kimi tanınırdı və yalnız 1989-cu ildə öz yaradıcısının şərəfinə Qarnye Operası adlandırıldı.

Bu əfsanəvi bina ilə ilk tanışlıq onun Cənub fasadı ilə başlanmalıdır.Bu,binanın ən dəbdəbəli hissəsidir və özünün bədii texnikası və görünüşünün müxtəlifliyi ilə hamını heyran edir. Şarl Qarnyenin təklifi ilə

fasadın bəzək işlərini 14 rəssam və 73 memar aparırdı,Buna görə də o,eklektikanın və ya sadəcə janrların qarışığını özündə əks etdirən ən xarakterik bir nümunədir.Teatrın girişinə on enli pilləkənlə daxil olursan və binanın girəcəyi yeddi tağla başlanır.Tağların üzərini dahi bəstəkarların heykəlləri və barelyefləri bəzəyir.

Teatrın girişinə doğru uzanan iki pandus atlardan ibarət olan ekipaj üçün nəzərdə tutulub.Bir çox sənətşünasların və tənqidçilərin fikrinə görə,bu memarlıq elementi binanın ümumi ansamblı ilə ziddiyyət təşkil edir və onuun bədii tamlığını korlayır.Buna baxmayaraq ,iki pandus ilə əhatə olunmuş xidməti girişin əzəmətli və təntənəli görünüşü var.Binanın qarşısında iki mərmər sütun ucaldılıb və sütunların zirvəsində imperator hakimiyyətinin simvolu olan bürünc qartallar var.

Şarl Qarnyenin abidəsinin postamentində Qrand Opera binasının memarlıq proyekti əks olunub.

Teatrın Şərq fasadı da həmçinin potonda (girdə,qübbəli bina) binasıdır və “ abunəçilərin pavilyonu” kimi tanınır və opera binasının üçüncü girişidir.Əsasən imtiyazlı tamaşaçılar üçün nəzərdə tutulub.

Bundan əlavə binanın Qərb və Şimal fasadı da mövcuddur.Qərb fasadında “Fantom”restoranı yerləşir.Bu,müasir memarlığın nadir nümunələrindən biridir.Restoranın binası müxtəlif formalı şüşə panellərdən hazırlanmışdır.Restoran metal relslər üzərində dayanan müxtəlif formalı şüşə panellərdən hazırlanıb.Yəni bütün konstruksiya sanki havada asılı qalıb.Şəffaf şüşə divarlardan tarixi binanın interyeri görünür.Lazım olduqda isə restoranı bir iz qoymadan sökmək mümkündür.Teatrın Şimal fasadında işlə bağlı əsas funksiyalar yerinə yetirilir.Şimal fasadın arxa tərəfində teatrın teatrın əməkdaşlarının ,işçilərinin girib-çıxması üçün və eləcə də yük maşınlarınındaxil olması üçün arxa həyət var.

Bu möhtəşəm binanın interyerinə gəldikdə isə, dəbdəbəsini ifadə etməyə sözlər yetməz.Mühəndislik yenilikləri sayəsində daxili sahələr sütun dirəklərdən və daşıyıcı divarlardan azaddır.Bu xüsusiyyətinə görə ,teatrın interyeri daha geniş və havalı görünür.Geniş pilləkənlər,nəhəng çılçıraqlar,heykəllər,mərmərlər və s.-bütün bunlar qarşısında heyrətlənməmək mümkün deyil.

Haqqında danışdığımız bu tarixi abidələrin hər biri özünəməxsus memarlıq quruluşları ilə fərqlənir.Hər bir teatr binası özündə müəyyən bir tarixi dövrün xüsusiyyətlərini və burada baş vermiş əhəmiyyətli hadisələri yaşatmaqdadır.

### Ədəbiyyat:

1.Riba,R.H.A.Theatre Planning, The Architectural Press,London,1972.
2.Theatres (Gaelle Breton) NA 6821 B 74 Princeton arch. Press.
3.Donnet.A.Architectonographie des theatres de Paris. Paris 1821
4. Арган.Д.Г. История итальянского искусства.

## The history of famous theater buildings

### Summary

One of the main and interesting areas of culture is theatrical art. The theater, which combines many areas, has long ago penetrated the lives of people from ancient times. They were preparing scenes to carry out various rituals. It was always a necessity for the theater. At times, the interest in the theater increased and the need for space and space for the organization of such large-scale scenes. The implementation of this work, of course, was directly on architecture. The architects were engaged in the development of the architectural structure favorable for the theater. Today there are enough theater buildings in the world It can be from ancient theaters to modern buildings. However, there are some theater buildings among them, which are the first of these masterpieces when they say the theater building.

## История знаменитых театральных зданий

### Резюме

Одним из основных и интересных направлений культуры является театральное искусство. Театр, объединяющий множество направлений, давно проник в жизнь людей с древних времен. Они готовили сцены для проведения различных ритуалов. Это всегда было необходимо для театра. Временами интерес к театру возрастал и потребность в пространстве и пространстве для организации таких масштабных сцен. Реализация этой работы, конечно, была непосредственно на архитектуре. Архитекторы занимались разработкой архитектурного сооружения, благоприятного для театра. Сегодня в мире достаточно театральных зданий. Это могут быть как древние театры, так и современные здания. Тем не менее, среди них есть театральные здания, которые являются первыми из этих шедевров, когда говорят о театральном здании.

Şəkil 1.La Skala .Milan,İtaliya



Şəkil 2. Vyana Dövlət opera binası.



Şəkil 3.Opera Qarnye.Paris.Fransa



**Rəyçi: b.m. N.R.Ələsgərova**